# DASTANLARDA "QARI" OBRAZI

## Character "Kari" in Eposes

**Şebnem HÜSEYNOVA***

***Öz***: *Destan halk yaratıcılığının yaygın janrlarından olup, çeşitli imgeler alemi ile zengindir. Bu makale aynı obrazlardan biri- karı karakteri hakkındadır. Makalede karı imgesinin destanlardakı fonksiyonu, mitolojik kökünden ve demonik imge gibi tecessümünden konuşuluyor.*

***Anahtar kelimeler***: *Destan, karı, mitolojik karakter.*

***Abstract***: *Epos is one of the wide genre of folk art and it is rich with images . This article is about one of them, the image of old woman. In this article we discuss the function of the image "kari" in eposes, also the demonic nature of this character. We touch upon the mythological root of the old woman.*

***Keywords***: *Epos, kari, mythological character.*

Makale Gönderim: 19.05.2015
Kabul Tarihi: 29.05.2015

* AMEA Folklor İnstitutu

Dastanlar xalq yaradıcılığında özünəməxsus yer tutur. "Dastanlarda varlıq geniş, insanlar fikir və düşüncələri, fərdi xarakterləri ilə təsvir olunurlar" (Hacıyev, 1999: 317). Dastanlar insanların həyat tərzini, dünyagörüşünü, adət-ənənəsini özündə əks etdirir. Füzuli Bayat göstərir ki, "Dastan tarixin bəlli bir dönəmində, millətin passionar ruhunun qalxdığı, milli özünüdərkin yarandığı, milli şüurun formalaşdığı zaman yaranır" (Bayat, 2012: 245). "...dastan millətin ümumiləşmiş tarixidir, tarixi ruhudur" (Bayat, 2012: 260). Bu dastanların bəzisi real hədisələr üzərində qurulur, bəzisi isə bütünlüklə söyləyicinin təfəkkürünün məhsuluna çevrilir. "Həyat və cəmiyyət hadisələri qəhrəmanların mübarizəsi ilə bağlanır, xarakterlərin açılmasına, fərdi cizgilərin görünməsinə kömək edir" (Hacıyev, 1999: 317). Dastanlar obrazlar aləminin zənginliyi ilə seçilir. Bu obrazlar aləmində qarı obrazı xüsusi diqqət cəlb edir. Qarı köməkçi obraz kimi görünsə də bəzən hadisələrin idarəçisinə çevrilir. Bu qüvvə mənfi də ola bilər, müsbət də. Çünki qarı obrazı Ulu Anadan transformasiya olunduğuna görə, gah müsbət xarakterdə, gah da mənfi xarakterdə olur. Xüsusilə, qeyd etmək lazımdır ki, Ulu Ana "müsbət" obraz olsa da sonralar onun həm müsbət, həm də mənfi cəhətləri özündə əks etdirən transformasiya olunmuş nümunələrinə rast gəlirik. Bu törəmələrə həm dünya mifologiyasında, həm də Azərbaycan mifologiyasında geniş rast gəlinir. Ümumiyyətlə, qarıların hamısı dastanlarda çoxbilmiş, hiyləgər, uzaqgörən kimi təsvir olunur. Bəzi nümunələrə nəzər salaq.

"Kitabi-Dədə Qorqud" dastanında qarıların maraqlı təsviri verilir:

Qarılar dörd dürlüdür:
Birisi solduran sopdur
Birisi dolduran topdur.
Birisi evin dayağıdır.
Birisi necə söylərsən bayağıdır (Əlizadə, 2004: 22).

"Burada evdar, qonaqpərvər, işgüzar, səxavətli, xoşrəftar qadınlar təriflənir, əksinə, gəzəyən, pinti, israfçı, dedi-qodu ilə məşğul olan qadınlar pislənir" (Əfəndiyev, 1992: 335). Bu nümunədə qarılar deyəndə qadınlar nəzərdə tutulur. Yəni, bu dörd dürlü qarılar mifoloji, həmçinin də demonik deyillər. Başqa bir boyda qarı Qısırca yengə kimi, Boğazca Fatma kimi təqdim olunur:

"Sənin adın Qırq oynaşlı Boğazca Fatma degilmiydi?
Dəxi Eybin açaram, bəllü bilgil! dedi" (Əlizadə, 2004: 73).

"And içmişəm qısır qısrağa bindiyim yoq.
Binibəni qazavata vardığım yoq.
Evinizin ardında sarvanlar.
Sana baqar onlar.
Buldır-buldır gözlərinin yaşı aqar" (Kazımoğlu, 2011: 100)

Muxtar Kazımoğlu yazır ki, Boğazca Fatma qırx oynaşlı olduğu kimi, Qısırca Yengə də az aşın duzu deyil- onun ardınca sarvanların baxıb bıldır-bıldır göz yaşı axıtması hansısa hingilimdən, mazaxdan xəbər verir" (Kazımoğlu, 2011: 101).

"Qarıların dörd müxtəlif xasiyyətlisinə biz hələ "Kitabi Dədə Qorqud"da rast gəlirik. Sonrakı danstanlarımızda bunlar bəzən üç olur, bəzən yeddiyə qalxır, bəzən isə hətta qırxa çatdırılır.

Qarı var iman quran, qarı var ilan vuran.
Qarı var yeddi küpü, göydə hərləyən,
Qarı var yetəni yerdə kirləyər.
Qarı var cadu eləyib, can əridən,
Qarı var saman altından su yeridən.
Qarı var imanı əlində, qarı var tumanı belində.
Qarı var qəlyan çəkən,
Qarı var söz altından dəyirman tikən.
Qarı var ipək qarı, qarı var napak qarı,
Qarı var köpək qarı.
Qarı var hürü qarı, qarı var pəri qarı,
Qarı var şahpəri qarı.

Məlum olduğu kimi, bunlardan başqa bir də çox qədim etiqadlarla bağlı, daha dəqiq deyilsə, ölüm haqqındakı qədim, hətta ibtidai təsəvvürlərin antropomorfizmdən ibarət olan küp qarısı var ki, dastanlarımızda buna nisbətən az təsadüf edilir. (Təhmasib, 1960: 319) Küp qarısı dastanlarda rast gəldiyimiz caudgər qarının prototipidir desək yanılmarıq.

Qarıların onları mifoloji varlıq kimi tamamlayan xarakterləri, atributları olur. Bəzən qarıların adları onların xarakterindən xəbər verir. Məsələn, Ipək, Napak, Boğazca Fatma, Qısırca Yengə.

Məhəbbət dastanlarında qarı obrazına daha çox rast gəlinir. "Məhəmməd və gürcü qızı" dastanında hiyləgər, ipə-sapa yatmayan qarı əks olunub. Qarı kimi, onun qızı da hiyləgərdir.

"Məhəmmədgil oradan çıxıb, başqa bir öyə qonaq oldular. Qarı çox həyasız kaftar idi. Məhəmmədgilin başqa öydə qonaq olduğunu eşitdi. Məhəmmədin həcvi qarıya bərk toxunmuşdu. Oydu ki, qarı ilə qızı hərəsi əlinə bir kösöy götürüb, Məhəmməd olan öyə getdilər. Məhəmməd bunları gördü. Götürdü görək qarıynan qızına nə dedi:

Aldı Məhəmməd

Buraxsanız məni çəkəcək dara,
Cəllad olubdu bax, bu qarı, bu qız.
Qonuyu, qonşuyu gətirib zara,
Cümləsi deyər, ax bu qarı, bu qız...

Söz tamama yetdi. Qarıynan qızı döyə-döyə qovub öz öyünə saldılar (Azərbaycan xalq dastanları, 1980: 126-127).

Və yaxud, "Qurbani" dastanında bir yox, bir neçə qarı obrazı var. Onlar ipək qarı, köpək qarı, napak qarı kimi səciyyələnir.

"Mirzalı xan çoxbilmiş, dünyagörmüş adamları çağırıb dedi:

- Siz bilərsiniz, mənim oğlumun dərdi nədi? Bu niyə yuxudan ayılmır?

Dedilər:

- Sənin oğlunun dərdini qarılar bilər. Onları çağır.

Mirzalı xan gedib ipək qarını da, köpək qarını da, napak qarını da çağırdı. Əvvəl-əvvəl napak qarı gəldi, Qurbaninin vəzmini (nəbzini) əlinə alıb dedi:

- Oy aman, bununku onnandı.....

Qarını döydülər, çölə çıxartdılar. Köpək qarı irəli gəlib, Qurbaninin gözlərinin içərisinə baxdı, geri durdu, dedi (Azərbaycan dastanları, 1965: 9-10). Axırda qəhrəmanın dərdini tapan ipək qarı olur. O, xəstənin nəbzinə baxıb, ona buta verildiyini, eşqə düşdüyünü deyər, iki-üç gündən sonra ayılacağını söyləyər. Ümumiyyətlə, İpək, köpək qarı olmasından asılı olmayaraq, bütün qarılar çoxbilmiş, uzaqgörəndirlər. Burada hər üç qarı mifoloji obrazdır. “Xalq demonologiyasındakı personajların başlıca əlamətlərindən biri onların zoomorfik cizgilər daşımasıdır” (Bəydili, 2007: 209) bu da onların təbiətindəki xtoniklikdən irəli gəlir. Məsələn, “Qurbani” dastanındakı köpək qarı. Burada köpək dönərgəlikdir. Yəni qarının istəyəndə qarıya, istəyəndə köpəyə dönməsi və ətrafdakıların buna inam bəsləməsidir.

“Məhəmməd və gürcü qızı” dastanında “Qarı çox həyasız kaftar idi” deyilməsi isə qarının kaftardan dönərgə olmasına işarədir. Əslində Kaftar mifoloji obrazdır. “Şəki folklor mühiti” kitabının müəllifi Ləman Vaqifqızı Kaftarla bağlı 11 mətn qeydə aldığını deyir. Hər mətndə kaftar fərqli təsvir olunduğunu yazır. “Xalqın təsəvvürünə görə, Kaftar daha çox qəbiris¬tanlıq ətrafında rast gəlinən mifoloji varlıqdır. Bir neçə mətndə o, yolla gedən atlıları incidir, daha çox işıqdan və dəmir əşyalardan qorxur”. Ləman Süleymanova “Azərbaycan mifoloji mətnləri”ndə danışılan mifoloji obraz Kaftarkusun «Ağbaba folkloru» kitabındakı Kaftarküştü obrazı ilə eyni olduğunu açıqlayır. “Kaftarkis adamdan dönmədir, gecələr qəbiristanlığa gəlir və təzə qəbirləri eşib, ölüləri çıxardıb aparır”. “Kaftarküştü rastlaşdığı adamın dalına hoppanaraq onu

qorxudan, sonra isə özün¬dən gedən adamı qəbiristanlığa gətirib başdaşına söykəyərək içalatını çıxardıb yeyən mifoloji obrazdır”. (Vaqifqızı, 2012: 69) Şakir Albalıyevə görə isə, mifoloji obraz olan kaftar bəzən Halın bir dönərgəsi olaraq mifik mətndə çıxış edir” (Albalıyev, 2007: 64) Cəlal Bəydili yazır ki, mifoloji varlığı ayırd edən əlamətlərdən biri onun nə dərəcədə maddi qavranmağı, gerçək təsəvvür oluna bilməyidir. S. Tokaryevə görə, mifoloji personajın birinci başlıca əlaməti onda xariqüladə, fövqəltəbii özəlliklərin olması, ikincisi də ona inamın olmağıdır. (Bəydili, 2007: 39) Yuxarıdakı hər iki nümunədə bu əlamətlər var. Qarılara olan inamı isə qəhrəmanlara buta veriləndə görürük. Belə ki, xəstəhal olan qəhrəmanın dərdini yalnız qarılar bilir. Çünki yaxınları xəstənin vəziyyətinin qeyri-adi olduğunu bilib, onların dərdini tapmaq üçün loğman, təbib yox, qeyri- adi varlıq sayılan qarıları çağırırlar.

“Kitabi Dədə Qorqud” dastanındakı Qısırca Yengə, Boğazca Fatma kimi, bir çox dastanlarda da qarıların adı olur. "Alı xan" dastanı bunun bariz nümunəsidir: "Qarılar cürbəcür olur: Pərcahan, Hürcahan, Zorcahan; Napak qarı, İpək qarı, Köpək qarı (Azərbaycan dastanları,1965: 185-186). “Alı xan" dastanında yuxarıda adlarını çəkdiyimiz qarılardan başqa Xanı adlı qarıya da rast gəlirik.

"Qərəz, bacısını Tapdığa tapşırıb, yola rəvan oldular. Bunlar getməkdə olsun, Tapdıq bacısıynan altı ay bacı-qardaş kimi rəftar elədi. Yeddinci aya ayaq qoyanda Xanı qarı onu küçədə gördü." Xanı qarı bu zaman hiyləgərliyini işə salıb, Tapdığa Pəri xanımın onun bacısı olmadığını söyləyir. (Azərbaycan dastanları,1965: 186-187). Xanı qarı yuxarıda haqqında danışdığımız köpək qarı, napak qarılardandır. Əlinə fürsət düşən kimi qəhrəmana ziyan vermək istəyir.

Dastanlarda adətən aşıq qarıları təsvir edərkən onların xarakterini dinləyicilərə çatdırır. Bəzən isə qarılar özləri öz xarakterlərini açırlar. Abbas və Gülgəz" dastanında olduğu kimi:

"Vəzir Pəri xanımı öz oğluna almaq fikrində idi. İşi belə görəndə gəzib dolandı, bir qarı tapdı, dedi:

- Səni dünya malından qəni eliyəcəyəm, Abbas ilə Pərinin arasını vur!

Qarı əlini gözünün üstünə qoyub dedi:

- Mənim əlimdən elə ancaq ara vuruşdurmaq gəlir. Ondan asan nə var ki? İstəyirsən günü sabah onların arasını vurum.

Qarı tumanını çəkə-çəkə, burnunu silə-silə, düz Abbasın yanına gəlib, salamdan-kalamdan sonra dedi:

- Abbas, qərib ölkədə qız sevən oğlan onnan-bunnan soruşar, qızın halına-xasiyyətinə bələd olar, sonra nişanlanar. O Pəri xanımı sən nə ağılla aldın? Sənin beynini saz aparıb, adam tanımırsan.

Abbas məhəttəl qalıb dedi:

- Axı nə olub, qarı nənə? De görək, nə var?

Qarı dedi:

- Nə olacaq? Pəri xanımın gözləri kor, ayağı topal, dili də laldı"(Azərbaycan dastanları,1966: 134-138). Burada "Mənim əlimdən elə ancaq ara vuruşdurmaq gəlir. Ondan asan nə var ki?" deməklə qarı özü- özünü maraqlı ifadə edir, öz xarakterini özü açır. Bu dastanda qarı obrazı həm də "yalançı qəhrəman"ın köməkçisidir. O, şərin təmsilçisi olub pis niyyətini həyata keçirməkdə vəzirə kömək edir. " Şəri təmsil edən obrazların köməkçiləri, təbii ki, müsbət yox, mənfi obrazlar kimi təqdim edilməlidir və belə də edilir"( Kazımoğlu, 2012: 64).

Yuxarıda "Kitabi Dədə Qorqud"dan nümunə gətirdiyimiz Boğazca Fatma, Qısırca Yengə də yalançı qəhrəmanlardır, daha doğrusu "yalançı adaxlı". Muxtar Kazımoğlu göstərir ki, Hoqqabaz Molla Nəsrəddin Fateh Teymurləngə nə qədər gərəklidirsə, Qısırca Yengə və Boğazca Fatma da Banıçiçək və Burla xatuna bir o qədər gərəkdir". Çünki onlar "öz "əxlqasızlığı"- hoqqabazlığı ilə dəmir əxlaq və ismət sahiblərinin – Banıçiçək və Burla xatunun magik dayağıdır"(Kazımoğlu, 2012: 6).

"Abdulla və Cahan" dastanında da Qədəmnisə qarı özü-özünü belə təsvir edir:

Qədəmnisəyəm, taparam,
Sınıq könüllər yaparam,
Səndən bir müjdə qoparam,
Yəqin bil, gələcək oldu (Azərbaycan dastanları,1966: 237-240).

Sadalanan xüsusiyyətlərdən görürük ki, Qədəmnisə müsbət qarı obrazıdır. Digər dastanlarda qarşımıza çıxan ipək qarılardandır. Bu qarı sınan qəlblərə məlhəm tapır, xoş müjdələr aparıb, xoş müjdələr gətirir.

Dastanlarda bütün napak qarılar yalançı, hiyləgər olduqlarına görə döyülüb-söyülürlər. Onlar gülüş hədəfinə çevrilirlər. Onların hərəkəti tənqid olunur. "Tənqid olunanla tənqid edənin, mənfi ilə müsbətin, pislə yaxşının bir-birinə qaynayıb-qarışması və vahid bir dünya təşkil etməsi xalq gülüşünün çoxmənalı mahiyyət daşımasından xəbər verir" (Kazımoğlu Muxtar, 2006: 28). Ümumiyyətlə, hiyləgərlik bütün növ qarı obrazlarında olur"...qarı obrazının ikili funksiyasının əsasında hansısa kənar mədəni ənənənin təsiri yox, mifoloji kompleksin öz təbiətindən gələn xüsusiyyətlər dayanır (Bəydili Cəlal, 2007: 85). "Valeh və Zərnigar" dastanında Xarzən qarı hiyləgərliyin rəmzidir. "Bir gün Valeh ilə şagirdi Səmənd Lənbərəndə toydan evə qayıdanda qabaqlarına Xarzən qarı çıxdı. Xarzən qarı bir burnunu çəkdi, bir tumanını çəkdi, Səməndə yanaşıb dedi…yaxud, Xarzən qarı hiyləgərliyə keçib, onun qılığına girdi, dedi (Azərbaycan dastanları,1967: 259-260).

Bəzi dastanlarda qəhrəmanlar qarıya pənah aparır, hətta onlardan yardım istəyirlər. Və bu qarılar imanlı qarılardır. Hətta "Şah İsmayıl" dastanında Gülzarla qarının dialoqundan bunu görmək mümkündür.

" Gülzar dedi:

- Ay nənə, imanına qurban olum, bir de görüm bu üzüyü verən oğlan haradadı?

Qarı dedi:

- Muştuluğumu verməsən deməərəm."

Başqa bir dialoqda Şah İsmayılla qarının deyişməsindən qarının xeyirxah olduğunu görürük.

"Gecə qonaq qalmaq üçün Türfənsə adlı bir qarının qapısına gəldilər.

Aldı Şah İsmayıl, görək qarıya nə dedi:

Başına döndüyüm, ay qarı nənə,
Sizin yerdə qərib mehman olarmı?
Nə müddətdi mən divana olmuşam,
Davasız dərdimə dərman olarmı?

Aldı Türfənsə qarı:

Başına döndüyüm gül üzlü cavan,
O nə sözdü qərib qonaq olarmı?
Əhli-şəhər müsəlmanlıq deyilmi?
Mehmanı qapıdan qovmaq olarmı? (Azərbaycan dastanları,1967:153-156).

“Aşıq Qərib” dastanında da buna bənzər mənzərə təkrarlanır. Əgər qəhrəmanın rastlaşdığı qarı müsbət qarıdırsa, onda o, qəhrəmana yatmağa yer verir, ona məqsədinə çatmağa kömək edir. Qəhrəman bu yaxşılıqların əvəzində ona artıq pul vermək istəyəndə qarı deyir: “Oğul, elə bu verdiyin pul da mənim bəsimdi, nəyimə lazımdı, bu gün-sabah ölüb gedəcəyəm, vərəsəm yox, zadım yox” (Azərbaycan ədəbiyyatı inciləri (nağıllar), 1985: 362). Qəhrəmanın qarıdan sığınacaq istəməsi xəttini “Koroğlu” dastanında da görürük.

"Baxdı ki, hava qaranlıqlaşır. Bir qarının qapısını döyüb dedi:

- Ay qarı nənə, bu gecəliyə məni qonaq saxlarsanmı?

Qarı dedi:

- Niyə saxlamıram. Qonaq Allah qonağıdı.

Koroğlu qarıya bir ovuc pul verib dedi:

- İndi ki, elədi, al, mənə yemək hazırla."

Bir qarıya qonaq oldum,
Nə yaman çamxanası var.
Dövlətini xəbər aldım,
Bir inək, bir danası var (Fərhadov, 1975: 146-149).

Nümunədən də göründüyü kimi, Koroğlunun qarşılaşdığı qarı da subaydır. Ümumiyyətlə, bütün folklor nümunələrində qarılar tək, ya bir qızı, ya da bir oğlu ilə yaşayır. Onların əri olmur, hətta onlardan sohbət belə açılmır. Y.V Propp Baba Yaqa haqqında danışarkən göstərir ki, o, qarıdır, heç vaxt əri olmayan qarı (Пропп, 1986: 75).

Yuxarıda sadalananlardan belə nəticəyə gəlmək mümkündür ki, bütün hallarda qarı mifoloji personajdır. Bəzən isə, demonik obraz kimi də çıxış edir. O, Ulu Anadan transformasiya olunduğuna görə, həm xeyir, həm də şər qüvvəni özündə cəmləyib. O, "köməkçi qəhrəmandır". Eyni anda, həm xeyirxah olub qəhrəmanın müsbət köməkçisi kimi çıxış edə bilər, həm də mənfi qəhrəmanın mənfi köməkçisinə çevrilə bilərlər. Qarı- bəzən yaralara məlhəm ola bilər, bəzən isə cilddən-cildə girib insanları "yaralayar". Hər bir halda qarı hiyləgər, çoxbilmiş, yaşı bilinməyən varlıqdır.

## KAYNAKLAR

Albalıyev Şakir. (2007) "Hal obrazı: mifdə və mərasimdə". Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XXV kitab, 50-72.

Azərbaycan dastanları. (1965). I cild. tərt. ed. Ə. Axundov, M. Təhmasib ; red. H. Araslı. Azərbaycan SSR Elmlər Akademiyası. Bakı.

Azərbaycan dastanları. (1966). II cild. tərt. ed. Ə. Axundov, M. Təhmasib; red. H. Araslı. Azərbaycan SSR Elmlər Akademiyası. Bakı.

Azərbaycan dastanları. (1967). III cild. tərt. ed. Ə. Axundov, M. Təhmasib; red. H. Araslı. Azərbaycan SSR Elmlər Akademiyası. Bakı.

Azərbaycan ədəbiyyatı inciləri (nağıllar). (1985). "Yazıçı". Bakı.

Azərbaycan xalq dastanları. (1980). toplayan. və tərt. ed. Ə. Axundov; red. A. Nəbiyev "Yazıçı". Bakı.

Bayat Füzuli. (2012). Folklor dərsləri. "Elm və təhsil". Bakı.

Bəydili Cəlal. (Məmmədov). (2007). Türk mifoloji obrazlar sistemi: struktur və funksiya (monoqrafiya). "Mütərcim". Bakı.

Əfəndiyev Paşa. (1992). Azərbaycan Şifahi Xalq Ədəbiyyatı. "Maarif". Bakı.

Əlizadə Samət. (2004). Kitabi - Dədə Qorqud. Azərbaycan xalq ədəbiyyatı. "Öndər", Bakı.

Fərhadov Fərhad. (1975). "Koroğlu" dastanı. "Maarif". Bakı.

Hacıyev Abbas. (1999). Ədəbiyyatşünaslığın əsasları. "Zaman". Bakı.

Kazımoğlu Muxtar. (2006). Xalq gülüşünün poetikası(monoqrafiya). "Elm". Bakı.

Kazımoğlu Muxtar. (2011). Folklorda obrazın ikiləşməsi. "Elm". Bakı.

Kazımoğlu Muxtar. (2012). Epos. Nəsr. Problemlər. "Elm və təhsil". Bakı.

Vaqifqızı (Süleymanova) Ləman. (2012). Şəki folklor mühiti. "Elm və təhsil". Bakı.

Пропп. В.Я. (1986). Исторические корни волшебных сказок. Ленинград.

Təhmasib M.H. (1960). Qeydlər. Azərbaycan nağılları: 5cilddə. I c. (315- 324). Azərbaycan EA. Bakı.